*Azərbaycan-Türkiyə münasibətləri adi dövlətlərarası tərəfdaşlıqdan qat-qat üstündür. Bu münasibətlər ortaq tarixə, mədəni irsə, dilə, dinə və eyni zamanda qan qardaşlığına əsaslanır. Hər iki xalqın bir-birinə əl uzatdığı, çətin günlərdə tərəddüd etmədən köməyə gəldiyi saysız-hesabsız nümunələr var. 2020-ci ildə Vətən müharibəsində Türkiyənin Azərbaycana mənəvi dəstəyi, eynilə 2023-cü ildə baş verən dəhşətli Kahramanmaraş zəlzələsində Azərbaycanın dərhal yardıma gəlməsi bu sarsılmaz birliyin təzahürləridir.*




Bu tarixi birlik və həmrəyliyin daha bir möhtəşəm təzahürü Türkiyənin Kahramanmaraş şəhərində gerçəkləşəcək. Bu gün isə Azərbaycanın inşa etdiyi "Azərbaycan" məhəlləsinin rəsmi açılışı olacaq. Xatırladaq ki, layihə 2023-cü ilin fevralında bölgədə baş vermiş dağıdıcı zəlzələdən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə başlanan humanitar dəstəyin davamı olaraq reallaşıb.

**(davamı 3-cü səhifədə)**

GÜNÜN SİYASİ NƏBZİ








# Kahramanmaraşda ucalan evlər qardaşlığın, sarsılmaz birliyin rəmzidir



**(əvvəli 1-ci səhifədə)**

2023-cü ilin 6 fevralı Türkiyə tarixinə qara hərflərlə yazıldı. Gecə saatlarında mərkəzi Kahramanmaraş vilayəti olmaqla ölkənin cənub-şərq bölgəsində baş verən dağıdıcı zəlzələ təkcə binaları deyil, minlərlə ailənin həyatını alt-üst etdi. 7.7 və daha sonra 7.6 bal gücündə qeydə alınan yeraltı təkanlar Türkiyənin 10 vilayətində ciddi dağıntılara səbəb oldu. Bu, son əsrdə regionda baş verən ən faciəvi təbii fəlakətlərdən biri kimi tarixə düşdü. Zəlzələ nəticəsində Kahramanmaraş, Hatay, Adıyaman, Malatya, Gaziantep, Şanlıurfa, Osmaniye, Diyarbakır, Adana və Kilis vilayətlərində minlərlə yaşayış binası yerlə bir oldu. İllərlə qurulan həyatlar, xatirələr, ailələr dağıntıların altında qaldı. On minlərlə insan həyatını itirdi, yaralananlar və itkin düşənlərin sayı isə fəlakətin miqyasını daha da artırdı. Genişmiqyaslı axtarış-xilasetmə əməliyyatları günlərlə, hətta həftələrlə davam etdi. Hava şəraiti və qış soyuqları xilasetmə işlərini daha da çətinləşdirdi. Faciə o qədər dəhşətli idi ki, dünyanın hər yerindən yardım çağırışlarına cavab verildi.

Təbii fəlakətlər, müharibələr və çətinliklər bəzən insanları olduğu kimi dövlətləri də daha yaxından tanıdır. Məhz bu çətin anlarda "bir millət, iki dövlət" şüarının sözdə yox, əməldə də öz təsdiqini tapdığının yenidən şahidi olduq. Zəlzələnin baş verdiyi ilk saatlardan etibarən Azərbaycan Türkiyənin yanında oldu. Bu, xalqların mənəvi bağlılığının və qardaşlıq ruhunun real ifadəsi idi. Prezident İlham Əliyev fəlakətin baş verdiyi gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək Azərbaycan xalqının bu acını öz acısı kimi yaşadığını bildirdi, öz adından və xalqımızın adından dərin hüznlə başsağlığı verərək, yaralılara tezliklə şəfa dilədi. Azərbaycanın lideri zəlzələdən cəmi iki gün sonra - fevralın 8-də Türkiyənin Azərbaycandakı səfirliyini ziyarət etdi, Azərbaycanın hər zaman olduğu kimi, Türkiyənin yanında olduğunu vurğuladı: "Azərbaycan öz dəstəyini, öz həmrəyliyini həmişə olduğu kimi nümayiş etdirir. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik".

Digər tərəfdən, iki ölkə arasında sarsılmaz birliyin müxtəlif sahələrdə geniş və məqsədyönlü aspektləri mövcuddur. Azərbaycan və Türkiyə bu gün yalnız mənəvi bağlarla deyil, iqtisadi gücləri ilə də bir-birini tamamlayır. İki qardaş ölkənin münasibətləri artıq sıravi tərəfdaşlıq çərçivəsini aşaraq, strateji müstəvidə yeni bir mərhələyə qədəm qoyub. Bu yüksəlişin mərkəzində isə enerji sektoru durur. Son illərin statistikası da bu inkişafın canlı sübutudur. 2023-cü ilin nəticələrinə nəzər salsaq, Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsinin 8 milyard ABŞ dollarına çatdığı görünür. Bu rəqəm iki ölkə arasındakı iqtisadi bağların necə genişlənməkdə olduğunu aydın şəkildə göstərir və yüksələn tendensiya ilə gələcəyə ümid verir. Bununla yanaşı, Azərbaycanın Türkiyə iqtisadiyyatına yönəltdiyi sərmayələr isə artıq 20 milyard dollar həddini keçib. Bu, sadəcə maliyyə göstəricisi deyil - bu rəqəmlər ortaq gələcəyə inamın, siyasi iradənin və sarsılmaz qardaşlığın iqtisadi təcəssümüdür. Gələcək illərdə bu rəqəmlərin daha böyük həcmə çatacağı proqnozları səslənir və bu proqnozlar artıq həyata çevrilməkdədir. Xüsusilə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi layihələr iki ölkə arasında enerji sahəsində əməkdaşlığın təməl sütunlarına çevrilib.

Bu gün Türk Dövlətləri Təşkilatının sütunlarını daha da möhkəmləndirən əsas qüvvələrdən biri kimi də məhz Azərbaycan və Türkiyənin sarsılmaz birliyi ön plana çıxır. İki qardaş ölkə ortaq siyasi iradə və strateji baxışlarla TDT-nin gələcəyini formalaşdırır. Onların fəallığı təşkilat çərçivəsində həyata keçirilən layihələrin uğurla icrasına, həmçinin ümumi sabitlik və rifahın təmininə xidmət edir. Azərbaycan və Türkiyə birgə təşəbbüslərlə region dövlətlərini vahid platformada birləşdirir, ortaq tarixə və dəyərlərə əsaslanan əməkdaşlıq formatını daha da genişləndirir. Bu liderlik missiyası artıq beynəlxalq səviyyədə də tanınır və təqdir olunur. Qeyd edək ki, təkcə TDT çərçivəsində deyil, Azərbaycan-Türkiyə qardaşlığı bu gün tamamilə yeni bir mahiyyət qazanaraq, müasir geosiyasi reallıqlar fonunda daha da möhkəmlənir. Tərəfdaşlıq ortaq iradə, milli maraqlara söykənən strateji düşüncə ilə yoğrulub. İki dövlətin beynəlxalq müstəvidə - BMT-dən ATƏT-ə, NATO-dan İslam Əməkdaşlıq Təşkilatına qədər bir çox platformada eyni mövqedən çıxış etməsi bu birliyin gücünün əyani təcəssümüdür. Sözügedən əməkdaşlıq, regionun və dünyanın təhlükəsizlik arxitekturasında mühüm rola malikdir. Azərbaycan və Türkiyə eyni hədəfə tuşlanmış baxış bucağı ilə təkcə regional sabitliyə deyil, qlobal miqyasda sülhə və tərəfdaşlığa töhfə verən ölkələr kimi çıxış edir. Xüsusilə 2020-ci ildə baş verən və tarixin axarını dəyişən İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin sərgilədiyi dəstək bu münasibətlərin sadəcə diplomatik çərçivədə olmadığını bütün dünyaya nümayiş etdirdi. Həmin günlərdə Ankara tərəfindən səslənən qətiyyətli mövqe və siyasi dəstək qardaşlıq anlayışının real gücə, dayanıqlı ittifaqa çevrildiyini təsdiqlədi.

Məhz Kahramanmaraşdakı təbii fəlakət zamanı Azərbaycanın qardaş Türkiyəyə göstərdiyi yardım təkcə humanitar missiya deyil, həm də sarsılmaz birliyimizin, mənəvi həmrəyliyimizin bariz nümunəsi kimi tarixə yazıldı. Fövqəladə Hallar Nazirliyinin fədakar xilasedíciləri, həkimləri və könüllüləri zərərçəkmiş ərazilərə ilk andan etibarən ezam olundu, yardım karvanları bir-birinin ardınca yola salındı. Təbii fəlakətin yaratdığı dağıntılar arasında ümid axtaran minlərlə insan üçün qardaş Azərbaycanın varlığı bir təsəlli, bir dayaq oldu. Ümumilikdə 5373 tonluq humanitar yardım paketinə 9183 çadır, 145 konteyner tipli mobil ev, səhra hospitalı, səhra mətbəxi, generatorlar və digər həyati əhəmiyyət daşıyan avadanlıqlar daxil idi. Xüsusi vurğulanmalıdır ki, azərbaycanlı xilasedicilər dağıntılar altından 53 nəfəri sağ çıxardı. Eyni zamanda, 780 nəfərin nəşi tapılaraq ailələrinə təhvil verildi, 3123 nəfərə isə yerindəcə tibbi yardım göstərildi. Bu fədakarlığın arxasında dövlətin qətiyyəti, xalqın ürəkdən gələn dəstəyi və insanlıq naminə səfərbər olan iradə dayanırdı. Yardımların ümumi maliyyə dəyəri isə 31 milyon 510 min 900 ABŞ dolları (53 milyon 568 min 530 AZN) təşkil etdi. Bundan əlavə, 13 milyon 397 min 883 ABŞ dolları (22 milyon 776 min 400 AZN) birbaşa maliyyə yardımı kimi təqdim olundu.

Azərbaycanlı jurnalistlər zəlzələ bölgələrindən reportajlar hazırladılar, qeyri-hökumət təşkilatları yardım topladı, minlərlə insan Türkiyə səfirliyinə gələrək başsağlığı mesajlarını və yardımlarını çatdırdı. Azərbaycan bir daha sübut etdi ki, qardaşlıq çətin günlərdə özünü göstərir. Bu hadisə həm də onu göstərdi ki, heç bir təbii və ya süni fəlakət Azərbaycan və Türkiyə birliyini sarsıda bilməz.

Ölkəmizin qardaş Türkiyəyə göstərdiyi dəstək yalnız təcili yardımlar ilə məhdudlaşmadı. Sözügedən mənəvi yardım daha dərin, uzunmüddətli bir missiyanın təməlini qoydu. Prezident İlham Əliyevin xüsusi tapşırığı nəticəsində qardaş ölkədə yaraların sarılması məqsədilə Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi. Qeyd edək ki, bu təşəbbüs çərçivəsində ölkəmiz 100 milyon ABŞ dolları (170 milyon AZN) məbləğində vəsait ayırdı. 27,6 hektarlıq sahədə müasir şəhərcik quruldu. Burada 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial infrastruktur obyektləri inşa edildi. Həmçinin bölgədə yaşayacaq ailələr üçün 1595 ticarət obyekti də yaradıldı - bu isə həm sosial, həm də iqtisadi reabilitasiyanın bir parçasıdır.

Layihənin ən yaddaqalan məqamlarından biri isə 2023-cü il aprelin 29-da keçirilən TEKNOFEST festivalı çərçivəsində məktəb və uşaq bağçasının təməlqoyma mərasimi oldu. Bu mərasimdə Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan videokonfrans vasitəsilə iştirak etdilər. Şübhəsiz, bütün bunlar layihəyə verilən yüksək səviyyəli dəstəyin və iki ölkə liderlərinin birlik iradəsinin nümayişi idi. 2023-cü ilin sentyabrında isə Naxçıvanda iki ölkə arasında bu layihəyə dair rəsmi Əməkdaşlıq Sazişi imzalandı. Artıq 2024-cü ilin sentyabrında Heydər Əliyev adına ibtidai məktəb və uşaq bağçası istifadəyə verildi.

"Azərbaycan" məhəlləsi iki qardaş xalq arasında güclənən birliyin, sevginin, qarşılıqlı etimadın və insanpərvərliyin simvoludur. Azərbaycan həmin zəlzələdən sonra Kahramanmaraşda tamamilə dağılan bir məhəllənin yenidən qurulmasını öz üzərinə götürməklə dağıntıların yerində gələcək inşa etdi. Bu gün "Azərbaycan" məhəlləsi ilk sakinlərini qarşılayır. Kahramanmaraşın ən çox itki vermiş yerlərindən olan Heydər Əliyev küçəsi ilə Azərbaycan bulvarının kəsişməsində salınmış yeni yaşayış məkanı həm də iki liderin - Mustafa Kamal Atatürkün və Heydər Əliyevin ruhuna ehtiramdır.

Artıq asfalt yollar döşənib, ictimai xidmətlər üçün lazımi şərait formalaşdırılıb. "Azərbaycan" məhəlləsinin açılış mərasimində Prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin iştirakı gözlənilir. Mərasimdə iki liderin birlikdə iştirakı dünyaya verilən mesaj olacaq - Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir. Bu, həm də Azərbaycanın fəlakətlərə dərhal cavab verən, sosial məsuliyyət daşıyan regional gücə çevrildiyinin bariz nümunəsidir. Bütün bu işlər qardaşlıq anlayışının konkret və davamlı fəaliyyətdə əks olunduğunu sübut edir. "Azərbaycan" məhəlləsi gələcəkdə həm də Türk dünyasının birliyi və həmrəyliyi üçün simvolik mərkəzə çevriləcək. Burada böyüyəcək uşaqlar, hər gün o məktəbdə dərsə gedən şagirdlər, hər səhər yeni ümidlə dükanını açan insanlar biləcəklər ki, onların arxasında dayanan qardaş ölkə var - Azərbaycan. Bu, eyni zamanda xalqların ürəyindən gələn qardaşlıq hissinin təcəssümüdür. Kahramanmaraşda inşa edilən "Azərbaycan" məhəlləsi bir daha sübut etdi ki, harada bir Türk dara düşsə, o əli tutacaq bir Azərbaycan var. Bu isə yalnız bu günə deyil, gələcəyə uzanan, əsrlərlə yaşayacaq qardaşlıqdır.







Ən önəmlisi isə odur ki, bu layihə heç bir qarşılıq gözlənilmədən mənəvi məsuliyyətlə həyata keçirildi. Azərbaycan özünü beynəlxalq yardım platformalarında tanıtmaq və ya statistik hesabatlarda görünmək üçün deyil, qardaşının ağrısını öz ağrısı bildiyi üçün bu addımı atdı. Zəlzələnin acısı Azərbaycanda hər bir evdə hiss olundu, Kahramanmaraş küçələrinin tozunu Bakı külәkləri təmizlədi. Bu sadəcə regionun deyil, bəşəriyyətin də ehtiyacı olan nadir örnəklərdəndir. Tikilən evlər, sinif otaqları, uşaq bağçaları və yollar dağıntıların altından çıxan ümidlərdir. O ümidlər ki, əgər dövlətlər bir-birinə məhz bu şəkildə sahib çıxarsa, insanlıq böhranlara təslim olmaz. "Azərbaycan" məhəlləsi bu ümidin konkret ünvanıdır.

Bu layihə çərçivəsində mədəniyyət mərkəzinin qurulması planı təsadüfi deyil. Azərbaycan bu məhəllənin ruhunu da formalaşdırdı. Məhəllənin uşaqları ulu öndər Heydər Əliyevin adını daşıyan məktəbdə təhsil alacaqlar. Bu, gələcək nəslə ötürülən kimlik və yaddaşdır. Azərbaycanın bu təşəbbüsü Türkiyə cəmiyyətində də dərin qarşılıq tapıb. Kahramanmaraş sakinləri bu yardımı dost payı kimi yox, öz evindəki ailə üzvünün dəstəyi kimi qəbul edirlər.

**Tacir SADIQOV,**
**"Respublika".**